

Zərdüşt ŞƏFİ

***
başimdan yuxari
ölüm durub gözümüzə

rahat yarışa bilmirik.
Torpaq dəyib dizimizə –
göyə qarışa bilmirik...

İkicə nəfər olmuşuq
və cənnətdən qovulmuşuq.
Allah bağışlayıb bizi –
bizsə barışa bilmirik.

Böyümüşük, boy atmışıq,
böyük dünya yaratmışıq.
Bu qədər qalxıb, ucalıb
bircə suala çatmışıq –
Ondan soruşa bilmirik.

**2010, yanvar**

**RUHUNA SALAM VER**

ruhuna salam –
başından ucadı,
saçından ağdı...
Bəlkə, meyvə verər çinar ağacı,
bəlkə, Afrikaya bir də qar yağdı...

Ruhuna salam ver,
Ruhuna salam –
sözümdən ağırdı,
gözümdən uzaq.

Tək qalıb yenə də bu Ayın altda
meşədə ulayır
tənha yalquzaq...

Ruhuna salam ver,
gözünü yum, ver,
gözün gözlərinə sataşa bilər!
Farağat dayan ver –
ayağın əyri –
torpaq ayağına dolaşa bilər...

Ruhuna salam ver,
Ruhuna salam –
varsa da, yoxsa da, səndən qocadı!
Sən ey ucalıqdan yıxılan adam –
ruhundan düşmüsən,
Ruhun Ucadı...

**04.09.2009**

# İLAHİ LƏNƏT

Bulud enibdi aşağı
adın duman qoyubdular...
düzlər əyriylə kəsişib –
adın yaman qoyubdular...

Addım-addım biz gedirik,
qorxa-qorxa az gedirik...
Biri bizi gəlib keçir –
adın zaman qoyubdular...

Günah dolu içimizdə,
batdım artıq bu dənizdə.
Xilas çöpü önümüzdə –
Tanrı enibdi aşağı.
xilas olaq özümüzdən –
Adın saman qoyubdular...

**16.02. 2009**

## BİR MƏKTUB YAZACAM SƏNƏ

sənə heç vaxt çatmayacaq.
Yollayacam dönə-dönə:
yenə heç vaxt çatmayacaq.

İllərə gərib sinəni,
gözünü yola dikərsən:
əqrəblər elə dönəcək,
günə heç vaxt çatmayacaq...

Elə sevəcəksən məni,
dilində dua bitəcək.
Sevgin ibadət olacaq,
dinə heç vaxt çatmayacaq.

**16.02.2010**

## BİR QONAQ VAR QAPINIZDA

açın, içəri keçəcək.
Evinizdə sevgi varsa –
bir müddət sizə köçəcək.

Bir sabah gözünü açıb
görərsən ki, qonaq yoxdu,
evinizdə sevgi yoxdu,
evinizdə ocaq yoxdu.

Sevgi adına bildiyin
nə varsa, dönüb zəhərə.
Deyirlər ki, bir yad gəlib,
ayrılıq salıb şəhərə.

**30.12.2010**

## İZ İÇİNDƏ İTİB YOLLAR

indi hərə bir iz gedir.
Kim gəlirsə, hay-küy salır –
kim gedirsə, səssiz gedir.

Ağac kimi oyuluram,
özümü tapa bilmirəm.
Hansı yana əyilirəm,
yollarım yenə düz gedir.

Bütün izlərimi yığdım,
yeni yol saldım özümə...
Başımı qaldırıb baxdım –
qabaqda təpəgöz gedir.

**İyun, 2010**

## QARĞALAR

parkların səkilərində
üç hərfli söz fikirləşirlər.
Tapan kimi deyəcəklər:
–qar
qar
qar.

Dərhal parklara
mələklərin kirpikləri töküləcək –
ağ günə çıxacaq şəhər,
ağ yerə çıxacaq adamlar.

Gözləri günəşli,
əlləri əlcəkli uşaqlar
sevincək diyirləyəcəklər onu bir yerə –
qoy qar da adam olsun!
Başına fırlanacaqlar,
nəğmələr oxuyacaqlar.
Ancaq
gözü kömürlü bu qar yumağı
heç vaxt adam ola bilməyəcək...

## MEQAPOLİS

***(Qismətə )***

Adamlar yollara sıxılıb qalıb
yollar sərilibdi Yer kürəsinə.
Tanrı göy üzünə ağ xalça salıb,
ağlayır asfaltın hər zərrəsinə.

Ağaclar parklara yığılıb burda.
Göydə nə şair var, doğulub burda.
Cazibə qüvvəsi yox olub burda –
burda hər kəs dönür öz dövrəsinə.

Şəhərdə işıq var, işıqda div var,
harda div yaşayır, orda bir ev var,
o evin içində bir tənha zəvvar
hər sabah ağlayır azan səsinə.

Adamlar yollara sıxılıb qalıb,
yollar sərilibdi Yer kürəsinə...

## NƏĞMƏLƏR

Hər küçənin tinində
bir evin divarı var.
Hər divarın dibində
bir adam məzarı var.

Hər məzarın içində
sümüklər varaq-varaq.
Həyatını saçında
saxlayıb daraq-daraq.

Daraq-daraq darayıb
küləklər sünbülləri.
Qəbrin üstə sünbüllər –
açıb ölüm gülləri.

Ot basır, yağış yuyur
evə söykənmiş qəbri.
Çölündə xarabalıq,
içində ölü səbri.

Məhbusdu bu qəbirdə,
açarıdı başdaşı.
Kilidinə düşməyib,
naşı düzəldib, naşı.

Dişlərini qıcayıb,
ölü gülmək istəyir.
Açın həyat qapısın –
o da girmək istəyir.

Yoxsa ki bir ölüdü
bir divarın dibində.
Adamların önündə,
Allahının cibində.

### SƏNİ ALIB APARMADI

bu kəpənək qanadları...
Yer üzündən qoparmadı
bu kəpənək qanadları...

Həvəs verdi ürəyinə,
hədəf tapdı diləyinə,
kim caladı kürəyinə
bu kəpənək qanadların?..

Sağ günəşdi, sol buluddu,
tezcə Tanrı yolun tutdu...
Göyün yeddinci qatında
səni yaman tez unutdu
bu kəpənək qanadları...

**21.01.2010**

## YAŞAMAQ

Döyüşdü...
Hamı atırdı...
Sən də atdın...

Birincidə ağlamışdın,
ikincidə güldün-
ikinci dəymişdi...

Həmişə qorxmuşdun-
səni güllə atmaq qorxuzurmuş,
adam vurmaq yox...

Sən müharibə üçün yaranmısan-
sənə ova getmək olmaz
bu istedadla...

**2009**

## *MƏLƏKLƏRİN XORU*

Evlərində küçələri
küçələrdə izləri var.
İzləri yoltək sürünür –
yollarında dizləri var.

Düzləri sarı sünbüllü,
göyləri də buludludu.
Açanda xarıbülbülü
oxunacaq sözləri var.

Belələrin çox görmüşük –
nə ilkdilər, nə də ki son.
Yeri onlara vermişik,
göylərdə də gözləri var.

Onlara insan deyirlər –
siz onlardan uzaq durun.
Onlar özlərin sevirlər –
içində də özləri var.

**Aprel, 2010**

## SƏNƏ YAZDIQLARIM

...səndən sonra
uzun- uzun
körpülər tikildi bu şəhərdə.
Mənsə məhəbbətdən danışdım səni
tanımayanlara!
Səni tanıyanlarasa baxıb susdum,
körpüləri göstərdim.

**fevral, 2010**

### SƏN BİR YAZ GÜNƏŞİ BAŞIMIN ÜSTƏ

mənsə dağ başına sığınmış qaram –
nə qədər isinsəm məhəbbətinə,
o qədər əriyib yoxa çıxaram.

Sonra dağ selisən, mənsə körpüyəm-
hücum çəkəcəksən dayaqlarıma...
Sən ki bu körpüdən keçməyəcəksən,
özüm yıxılacam ayaqlarına...

Belə qucaqlaşdıq biz iki düşmən:
nifrət və məhəbbət, barış və savaş...
Sən Günəşə döndün buxarlanaraq,
mən torpaq oluram, bax, yavaş-yavaş.

### PEYĞƏMBƏR

Sən heç yaşamadın, yağdın illərə –
İlləri su basdı,
Ömür boğuldu...
O qədər sevildin, düşdün dillərə,
O qədər tək yatdın –
Tanrı doğuldu...

Eh, adama nə var, eh, qula nə var?
Onların gələcək ağası sənsən!
Eh, arxanca qaçan bu yola nə var?
O yolda əbədi qalası sənsən!

Burax ətəyini, sürünsün ilan,
Burax əllərini, gözünü burax...
Bu dünya evində, inan, sağ qalan
Bir sarı yol olacaq, bir də ki Allah!

**DUMANDA DİZ ÇÖKƏN ŞAİR**

Bilmədin qəlbimin yerində yarpaq,
Payız küləyini əsdirib keçdin.
Özün yaşamadın, yağdın illərə,
Başımın üstündən buludla köçdün.

Yağdın sənə gələn yollara, yağdın,
Ağladın, islatdın ömür yolumu.
Sən mənə bir ovuc yadigar su ver,
Mən sənə şeir yazan bu sağ qolumu.

Eh, mənə nə var ki, mən dağ yamacı –
Bulaqlar qaynayar, sinəmdən çıxar.
Səhralar görmüşəm, sənə həsrətdi,
Deyirlər, bu bahar, bəlkə də, yağar.

Uzaqdan boylanıb buludlarına
Gözümün üstünə duman çəkərəm.
Sən məni görməzsən duman içində,
Mən duman içində yerə çökərəm.

**QARDA ÖLÜM**

Şam yanır, işıq sönüb, zaman donub, mənzil dar.
Qar yağıb, küçə ölüb, adam yatır, yağır qar.
Bir mələk, əldə külək, qırmanc vurur durmadan.
Sabah səhər küləkləri qovacaqlar uşaqlar.

Adam yatır. Yuxu tanış – qadın başqa, səs başqa.
Adam bilir – bu yuxudu, qadın indi gedəcək.
Adam öpür o qadını, adam öpür yoxluğu.

Yoxluq qadın kimi dadlı, yoxluq qadın kimi ağ!
Adam adam kimi adam, adam adam kimi ac!

Şam yanır, işıq sönüb, zaman donub, mənzil dar.
“Cəmil, oyan, oyan, Cəmil, qar yağır, bax, yağır qar...”
Qadın öpür, qadın sevir yanındakı adamı.
Adam yatır, adam yoxdu, adam ölübdü çoxdan!..

